## AĞA SAVALAN

# Bax elə beləcə...

Günəşin şəfəqi gur ələnərdi,
Hər yana, hər səmtə nur ələnərdi,
Ağızdan, nəfəsdən dürr ələnərdi,
Bax elə beləcə, bax elə belə.

Yamacda, yalmanda çiçək açardı,
Kəpənək güllərdən, gülə uçardı.
Uşaqlar yüyürüb elə qaçardı,
Bax elə beləcə, bax elə belə.

Sən mənim qarşıma çıxıb qalardın,
Ömrümə su kimi axıb qalardın.
Mən sənə, sən mənə baxıb qalardın,
Bax elə beləcə, bax elə belə.

Üz- üzə, göz-gözə biz dayanardıq,
Ürəkdə od-alov, köz dayanardıq,
Dildə deyiləsi söz dayanardıq,
Bax elə beləcə, bax elə belə.

Kədər boy verмədi, qəm çıxdı dizə,
Elə bil tuş gəldik biz yaman gözə,
Qaldıq, həsrət qaldıq bir-birimizə,
Bax elə beləcə, bax elə belə.